# Şərqşünas alim Türkiyədə keçirilən beynəlxalq konfransda məruzə edib



**AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin aparıcı elmi işçisi dosent Teymur Sadıqov Türkiyədə keçirilmiş II Beynəlxalq Elmi Araşdırmalar və İnnovasiyalar Konfransında məruzə ilə çıxış edib.**

İnstitutdan bildirilib ki, alimin məruzəsi "Ərəb və ibri dillərinin tarixi inkişaf yolu" mövzusunda olub. Məruzədə müqayisəli təhlillər aparılıb və elmi nəticələr diqqətə çatdırılıb.

İzmirdə keçirilən bu elmi platformaya dünyanın 20-dən çox ölkəsindən elm adamları, tədqiqatçılar qatılıb.

Azərbaycan.- 2025.- 25 fevral (№42).- S.15.